**UOT: 786.**

**Kənan Sadiqov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: knnsdqv2@gmail.com**

# TAR İFAÇILIQ REPERTUARININ İNKİŞAF TARİXİNƏ BİR NƏZƏR

**Xülasə:** Məqalədə tar ifaçılıq sənətinin not repertuarının inkişaf mərhələləri haqqında məlumat verilir. Repertuarın zənginləşməsinə təkan verən tarixi amillər göstərilir. Xüsusilə tar ifaçılıq repertuarında əhəmiyyətli yer tutan tar və fortepiano üçün köçürmələrin ilk nümunələri və kitab nəşrləri xronoloji ardıcıllıqla araşdırılır.

**Açar sözlər**: tar, köçürmə, repertuar, inkişaf mərhələləri, ifaçılıq.

Tar ifaçılıq sənətinin inkişaf mərhələlərinə bir neçə aspektdən nəzər yetirə bilərik: tarın şifahi ənənəli musiqi ifaçılığında təşəkkül tapması, səs düzümünün Qərb musiqi alətləri səviyyəsində təkmilləşməsi, bu alət üçün köçürmə və orijinal bəstəkar əsərlərinin yaranması, müasir dövr musiqi üslublarının tar ifaçılığına sintez edilməsi. Bunlar da, öz növbəsində, mərhələli inkişaf dövrünü özündə cəmləşdirir.

Mirzə Sadıq Əsədoğlunun Azərbaycan tarında apardığı islahatlar bu alətin muğam sənətində aparıcı qüvvəyə çevirilməsində mühüm rol oynamışdır. Adları hər ifaçıya məlum olan Mirzə Fərəc, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Malıbəyli Həmid, Mirzə Mənsur Mənsurov, Şirin Axundov, Əhməd Bakıxanov, Qurban Pirimov kimi o dövrün görkəmli nümayəndələrinin yaradıcılıq fəaliyyəti tar ifaçılıq məktəbinin ilkin mərhələsini təşkil edir. XIX əsrin sonu – XX əsrin əvvəllərində fəaliyyət göstərən muğam üçlükləri, ansambl və dəstələr milli musiqimizin və muğam sənətinin çiçəklənən dövrünə təsadüf edirdi. Belə bir dövrdə dahi bəstəkar Üzeyir Hacıbəyli muğam sənətini Qərb musiqi sənəti ilə birləşdirərək tar ifaçılıq məktəbində yeni bir mərhələnin başlanğıcını qoydu. 1908-ci ilin yanvarında Tağıyev teatrının səhnəsindən gələn tarın sədası Üzeyir bəyin müasirlərinin yaradıcılığında da öz təzahürünü tapmış və tar ifaçılığının çoxyönümlü təfsirini yeni inkişaf mərhələsinə gətirib çıxarmışdır.

"Leyli və Məcnun" muğam-operasının premyerası ilə Azərbaycan bəstəkarlıq məktəbində Qərb musiqi elminə məxsus janr, formaların meydana gəlməsində əhəmiyyətli zəmin yaratmışdır. Məmməd Mirzəliyevin "Şərqin ürəyi olan tar" adlı məqaləsində qeyd edir: "Bəstəkar tardan təkcə melodiya üçün deyil, həm də akkordların, polifonik ünsürlərin ifasında da istifadə edir. Beləliklə, Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operasının müqəddiməsində tarın simfonik orkestrdəki rolunu nümayiş etdirməklə, onun gələcək səhnələrindəki fəaliyyətini müəyyənləşdirir".

Konsert və tədris proqramlarında istifadə olunan xarici və Azərbaycan bəstəkarlarının tar üçün ilk nümunələrinin yaranması hələ XX əsrin birinci yarısına təsadüf edir. Avropa musiqi sənətinə məxsus klassik janrları Azərbaycan bəstəkarlıq məktəbində tətbiq edən dahi bəstəkar Üzeyir bəy milli musiqimizi və alətlərimizi də daim diqqət mərkəzində saxlamışdır. Opera səhnəsində tar alətini təcrübədən keçirən bəstəkar "Tarın səs qatarının yenidən qurulması layihəsi" əsəri ilə bu alət üçün yeni səs düzümü islahatını həyata keçirməyə müvəssəl olur. Avropa musiqi alətlərinin səs düzümünə əsaslanaraq tarın pərdələrini yenidən qurması və not sistemini tətbiq etməsi ilə bu alətin simfonik alətlərlə yanaşı bir partiturada yazılması kimi əlamətdar hadisəyə nail oldu. Belə ki, "Leyli və Məcnun" operasında daha çox muğam partiyalarının müşayiətçi funksiyasını daşıyırdısa, artıq "Koroğlu" operasında tar alətinin partiyası müstəqil olaraq öz müvafiq yerini tapmışdır.

1921-ci ildən başlayaraq Üzeyir Hacıbəyli Azərbaycan Dövlət Konservatoriyasında not ifaçılığını tədris etdirməyə başlamışdır. Əlbəttə ki, ilk illərdə not sisteminin tətbiqi az ifaçılar tərəfindən qavranılmışdır. Bunun da əsas səbəbi bu zamana kimi tar ifaçılığında yalnız şifahi yolla milli musiqimiz tədris və ya ifa edilmişdir. Azərbaycan bəstəkarlıq məktəbində Avropa klassik janrlarının təzahürü ilə not ifaçılığının başa düşülməsi və bu sistemin tədrisi üçün metodik vəsaitlərə, tədris proqramlarına ehtiyac yaranmağa başlanır. Tədqiqatçı alim Afət Novruzov "Tar ifaçılıq sənətinin inkişafında bəstəkar əsərlərinin rolu" əsərində belə bir qeyd aparmışdır: "Not ifaçılığı isə tarda ilk addım olduğuna görə sözsüz ki, tədrisdə dərs vəsaiti kimi xarici ölkələrin bəstəkar əsərləri və müxtəlif musiqi dərsliklərindən istifadə etmək zərurətini yaradırdı. Bunları nəzərə alaraq Ü.Hacıbəyli 1925-ci il mayın 9-da o dövrün tələbinə uyğun şəkildə tar ixtisası üzrə not və muğam proqramını tərtib etmişdir. Tar ixtisasının not üzrə proqramında

Ü.Hacıbəyov öz əsərləri ilə yanaşı xarici ölkə müəlliflərinin münasib əsərlərindən də istifadə etmişdir". Qərb və rus bəstəkar yaradıcılığına məxsus opera nömrələri, vokal əsərlər və pyes nümunələrinin tar ifaçılığında tətbiq edilməsindən qabaq Üzeyir bəy bu əsərlərə xas olan passaj, nüans, texniki və bədii xarakter, ritm və faktura məsələlərinin qavranılması üçün məşğələlər tədris etdirirdi. Təsadüfi deyil ki, bu məşğələlər məhz violin və digər rus, Avropa musiqisində istifadə olunan texniki etüdlərdən ibarət idi. Üzeyir bəyin tərtib etdiyi tədris proqramında M.K.Klimov, A.İ.Rubets kimi görkəmli rus dirijor və nəzəriyyəçilərinin adlarına rast gəlirik. Elə həmin illərdə Üzeyir Hacıbəyli tədris proseslərindən müşahidə etdiyi müsbət nəticəyə əsasən tarın repertuarına ilk dəfə olaraq Avropa və rus bəstəkar əsərlərini daxil etməyə qərar verir. Tar və fortepiano üçün köçürmüş olduğu Ş.Quno "Faust" operasından "Vals", V.A.Mosartın "Rondo" əsərini tələbəsi Səid Rüstəmovun ifasında nümayiş etdirərək alətin potensial imkanlarının bu əsərlərin orijinal ifasını çatdırmağa malik olduğunu sübuta yetirir. Tar partiyalarında metso-soprano açarını tətbiq edən dahi bəstəkar bu əsərlərin violin partiyalarını köçürərkən təcrübələrinə əsasən yalnızca açar dəyişikliyi etmişdir. Ş.Quno "Faust" operasından "Vals"ı re major tonallığından sol major tonallığına köçürmüş və heç bir nüans, faktura dəyişikliyi etmədən bu əsərin yazıldığı alət qədər tar alətində də orijinal səslənməyə nail ola bilmişdir. Bu əsər 20-ci illərdə ifa olunmasına baxmayaraq, 1954-cü ildə Z.Stelnikin redaktorluğu ilə nəşr edilmişdir. Şübhəsizdir ki, xarici ölkə bəstəkarlarının yaradıcılığında yer alan nümunələrin tar repertuarına köçürülməsi alətin müxtəlif bədii və texniki ifaçılıq keyfiyyətlərini üzə çıxarmış və Azərbaycan bəstəkarlarının bu janrlarda milli və orijinal əsərlər yaratmağında böyük əhəmiyyətə malik olmuşdur. Uzun illər tar ifaçılarının yetişdirilməsində bu proqramdan istifadə olunmasına baxmayaraq ilk metodik tədris vəsaiti Səid Rüstəmov tərəfindən 1935-ci ildə ərsəyə gəlmiş "Tar məktəbi" dərsliyidir. Üç bölmədən ibarət olan dərslikdə tarın tutuş və ifası kimi təməl qaydalardan əlavə "Bayatı-Şiraz", "Rast" muğam etüdlərinə, Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasından "Əsgərin şadlığı" mahnısı, "Mazut" və "Komsomolçu qız" mahnıları, A.Zeynallının "Ölkəm" romansı, M.Maqomayevin "Şah İsmayıl" operasından "Şah İsmayılla Gülzarın dueti", görkəmli rus dirijoru M.K.Klimovun (1881-1937) "Solfecio məktəbi", o cümlədən, fransız violin ifaçısı və bəstəkar J.F.Mazasın (1782-1849) "Skripka məktəbi" kitabından musiqi materialları, Azərbaycan xalq musiqi nümunələ-

rindən “Şur”, “Rast”, “Segah”, “Şahnaz” rəngləri, “Çıxdım qaya başına” xalq mahnısı kimi geniş proqrama rast gəlirik. “Tar məktəbi” 1948 və 1954-cü illərdə daha iki dəfə nəşr olunmuşdur. Yeni nəşrlərdə dərsliyin proqramı bir qədər dəyişilmiş, bəzi nümunələr çıxarılmış, yeniləri daxil edilmişdir. İkinci və üçüncü nəşrlərdə artıq Azərbaycan bəstəkar əsərlərinin nümunələrinə geniş yer verilir. Ü.Hacıbəyli “Döyüşçülər marşı”, “Şəfqət bacısı”, “Çağırış”, “Koroğlu” operasından “Yallı”, IV pərdədən “Rəqs”, S.Rüstəmov “Şadlıq rəqsi”, S.Ələsgərov “Cəngi”, A.Gəray “Cəngi”, Ə.Abbasov “Rəqs”, Q.Qarayev “Marş”, S.Hacıbəyov “Marş”, T.Quliyev “Neftçilər marşı”, həmçinin rus bəstəkarı P.İ.Çaykovskinin “Sonalar gölü” baletindən “Rəqs” musiqi nümunələri daxil edilir. Göründüyü kimi, dərsliyə əlavə olunan nömrələr bir qədər kiçik, sadə üslubda seçilmişdir. Bunun da səbəbi musiqi məktəbləri və texnikumunlarında təhsil alan şagirdlərin bu alətin ifaçılıq imkanlarına sadədən mürəkkəbə doğru yiyələnməsinə nail olmaqdır. A.Gərayın “Muğam etüdləri” (1943) və S.Rüstəmovun “Melodik etüdlər”(1950) texniki tədris vəsaitləri 1950-ci ilə qədərki dövrün mühüm iki orijinal əsərlərdəndir. Burada məqsəd etibarilə tar ifaçılarının texniki imkanlarının genişləndirilməsinə, müxtəlif pozisiya və mizrablarla düzgün nüans və artikulyasiya elementlərinə vərdiş almaqdır. Hər iki vəsaitin melodik quruluşunda muğam intonasiyalarından istifadə olunmuşdur. A.Gərayın “Muğam etüdləri”nin tərkibinə yeddi əsas muğamın adlarını daşıyan etüdlər aiddir. Hər muğamın şöbə və guşələrinin ritmik xüsusiyyətləri qorunaraq etüd şəklində yazılmışdır. Etüdlərin texniki quruluşunda Mazas, Albrext, Kayzer, Volfart kimi Qərb bəstəkarlarının əsərlərindən istifadə edilmişdir. S.Rüstəmovun “Melodik etüdlər” tədris vəsaitində isə muğam intonasiyaları qorunub saxlanmaqla alətə xas santur mizrab, çahar mizrab, zəng tellərdən istifadə, xromatizmlər, arpeciolu hərəkətləri özündə cəmləşdirir.

1920-1952-ci illəri tar ifaçılığında orijinal bəstəkar əsərlərinin yaranmasının təməl daşlarının atıldığı bir dövr hesab etmək olar. J.Akkolainin violin üçün a-moll Konsertinin Səid Rüstəmov tərəfindən tar və fortepiano üçün köçürülməsi nisbətən sadə proqram olmasına baxmayaraq ilk addım üçün olduqca əhəmiyyətli hadisə idi. Bu qəbildən olan sadə musiqi nümunələrinin ilkin mərhələdə tarın repertuarına daxil edilməsi sonralar xarici ölkə bəstəkarlarının violin və orkestr üçün Konsertləri, simfonik orkestr üçün müxtəlif janrlı, o cümlədən opera və baletlərdən musiqi nömrələri, iri həcmli əsərlərin tar və fortepiano üçün

köçürmələrinin meydana gəlməsinə zəmin yaratdı. Hələ 1950-ci ildən sonra Azərbaycan bəstəkarlarının tar üçün köçürmələrinin artması kütləvi hal almağa başlayır. Bu dövrdən başlayaraq tar ilə fortepiano üçün işlənmiş əsərlər nəşr edilməyə başlanır. S.Rüstəmov, S.Ələsgərov, A.Gəray, B.Zeydman, Z.Stelnik və başqaları köçürmə fəaliyyətində qeydə dəyər işlər görmüşlər. Süleyman Ələsgərov C.Verdinin "Riqoletto" operasının mövzuları əsasında Fantaziyanı tar və fortepiano üçün işləmiş və kamera-instrumental janrında xarici bəstəkar əsərlərini bu formada tar alətində səsləndirən ilk Azərbaycan bəstəkarı olmuşdur.

Dünya bəstəkarlarının kiçik formalı əsərləri, opera və baletlərdən nömrələrin tar üçün işləmələri, milli alətlərimizdə iri formalı nümunələrin 30-cu illərdə Ü.Hacıbəylinin "Çahargah" və "Şur" fantaziyaları, 40-cı illərdə F.Əmirov və A. Babayevin fortepiano və xalq çalğı alətləri orkestri üçün "Konserti", violin üçün yazılmış konsert janrının tar alətinə köçürülməsi hadisələri 1952-ci ildə tar və simfonik orkestr üçün "Konsert"in yaranması ilə nəticələndi. Üzeyir Hacıbəylinin ideya və ənənələrinin layiqli davamçısı olan Hacı Xanməmmədovun atdığı bu addım, tar ifaçılıq məktəbində yeni bir mərhələnin və digər janrlarda yaranacaq ilk əsərlərin başlanğıcı oldu. Sonrakı illərdə daha dörd konsertin müəllifi olan bəstəkarın yolunu S.Rüstəmov, S.Ələsgərov, N.Məmmədov, R.Mirişli, T.Bakıxanov, M.Umudov və başqalarının tar üçün konsertlərində görə bilərik.

Qeyd etmək lazımdır ki, bu dövrdən etibarən tar ifaçılıq repertuarının istər orijinal, istərsə də işləmə əsərlərinin hüdudu bir-birindən müxtəlif janrlarda öz təzahürünü tapmışdır. Saydıqca genişləyən tar ifaçılıq sənətinin proqramına məqaləmizin məqsədi olan tar ilə fortepiano üçün köçürmə əsərlərin nəşr xronologiyasına nəzər yetirək: Ü.Hacıbəyli "Koroğlu" operasının V pərdəsindən "Rəqs" (A.Gəray, 1950), M.Maqomayev "Nərgiz" operasından "Yallı" (Z.Stelnik, 1950), P.İ.Çaykovski "İlin fəsilləri" silsiləsindən "Payız nəğməsi" (Z.Stelnik, 1950), S.Ələsgərov "Lirik rəqs" (1950), A.Zeynallı "Uşaq süitası"ndan rəqs (1950), S.Ələsgərov "Cəngi" (1950), P.İ.Çaykovski "Yevgeni Onegin" operasından "Vals" (S.Rüstəmov, 1951), F.Əmirov "Gözün aydın" musiqili komediyasından "Baharımsan" (1951), Ü.Hacıbəyli "Arşın mal alan" musiqili komediyasından "Asyanın rəqsi" (S.Rüstəmov, 1953), P.İ.Çaykovski "Neopolitan mahnısı" (S.Ələsgərov, 1953), M.Maqomayev "Şah İsmayıl" operasından "Rəqs" (S.Ələsgərov, 1953), Q.Qarayev və C.Hacıyev "Vətən" operasından "Rəqs" (işləyəni S.Ələsgərov, 1953), A.Dvorjak "İki slavyan rəqsi" (işləyəni

Z.Stelnik, 1953), M.Musorqski "Sərgidən şəkillər" silsiləsindən "Köhnə qala" (işləyəni A.Gəray, 1953), Z.Paliaşvili "Daisi" operasından "Lekuri" (Z.Stelnik, 1953), S.Raxmaninov "Polka" (işləyəni Z.Stelnik, 1953), C.Verdi "Riqoletto" operasının mövzuları əsasında Fantaziya (işləyəni S.Ələsgərov, 1954), Ü.Hacıbəyli "I Fantaziya" və "II Fantaziya" (1954), X.Cəfərov "Lirik rəqs" (1955), Ü.Hacıbəyli "Koroğlu" operasının II pərdəsindən "Rəqs" (işləyəni A.Gəray, 1955), A.Rzayeva "Pyes" (1959), A.Gəray "Pyeslər" (1964, 1968, 1970), S. Rüstəmov "Pyeslər" (1966), Ə.Rəhmətov "Azərbaycan bəstəkarlarının pyesləri" (1970, 1974), B.Kərimov "Pyeslər" (1975), O.Quliyev "Pyeslər məcmuəsi" (1976), S.Ələsgərov "Daimi hərəkət" və "Tarantella" pyesləri (1977), F.Əzimov "Azərbaycan bəstəkarlarının pyesləri" (1980), R.Quliyev "Azərbaycan bəstəkarlarının əsərləri" (1985, 1993, 1998), F.Əzimov "Azərbaycan bəstəkarlarının pyesləri" (1990), R.Quliyev "Xarici ölkə bəstəkarlarının əsərləri" (2001, 2001, 2003), R.Quliyev "Azərbaycan bəstəkarlarının əsərləri" (2003), M.Kərimov "Pyeslər" (2005), M.Kərimov "Azərbaycan və xarici ölkə bəstəkarlarının tar ilə fortepiano üçün işlənmiş əsərləri" (2005), S.Cəfərov "Azərbaycan bəstəkarlarının əsərləri" (2005), A.Abbasov "Pyeslər məcmuəsi" (2005), M.Kərimov "Xarici ölkə bəstəkarlarının ansambl üçün işlənmiş əsərləri" (2005), R.Əzizov "Azərbaycan və xarici ölkə bəstəkarlarının tar ilə fortepiano üçün işlənmiş əsərləri" (2006), H.Vəkilov "Pyeslər" (2007), Ə.Məmmədov "Xarici ölkə bəstəkarlarının əsərləri" (2009), M.Kərimov "Pyeslər məcmuəsi" (2011), D.Quliyev və A.Abbasov "Azərbaycan və xarici ölkə bəstəkarlarının tar ilə fortepiano üçün işlənmiş və köçürülmüş əsərləri" (2014), M.Məmmədov "Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət məcmuə" (2014), Ə.Məmmədov "Azərbaycan bəstəkarlarının əsərləri" (2014), B.Müzəffərov "Pyeslər məcmuəsi" (2017), B.Müzəffərov "F.Əmirovun simfonik əsərlərinin tar ilə fortepiano üçün işləmələri" (2019) və s.

Ardıcıllığa nəzər salsaq görərik ki, tar üçün müxtəlif janrlı köçürmələrin ilkin dövründə bəstəkalarların fəaliyyəti, 70-ci illərdən etibarən isə görkəmli tar ifaçıları, pedaqoq və professor heyəti tərəfindən məcmuə halında işlənib nəşr edilməsi intensivlik daşıyır.

Səsi ən mötəbər konsert salonlarını bəzəyən tarın repertuarının müxtəlif janr nümunələri ilə zənginləşməsi söz açdığımız kimi bir əsrlik inkişaf dövrünü əhatə edir. Tar ifaçılıq sənətinin not repertuarının artırılmasına üç inkişaf istiqamətində nəticələndirə bilərik. 1920-1950-ci illəri başlanğıc mərhələ hesab

etmək olar hansı ki, bu dövrdə ilk not nümunələri, tədris vəsaitləri, ilkin materiallar yaranmağa başlayır. Tərəqqi dövrünü 1950-1990-ci illər müxtəlif janrlarda iri və kiçik həcmli çox sayda orijinal bəstəkar əsərləri və köçürmələrinin tar repertuarını zənginləşdirməsi ilə yaşayır. 1990-ci ildən başlayaraq müasir dövr bəstəkarların yaradıcılığında tar üçün yeni proqramlı əsərlərin yaranması dövrüdür. Hətta günümüzün etno-caz, pop, caz-funk, fyucn kimi üslublarının tarda tətbiq edilməsi bu alətin ifaçılıq hüdudlarını olduqca genişləndirmişdir. Tarın repertuarının rəngarəng janr çeşidliliyi bəstəkar və bu alətin ifaçılarının yaradıcılıq fəaliyyəti ilə günümüzə qədər gəlib çıxmışdır. Şəhriyar İmanov, Sahib Paşazadə, Arslan Növrəsli, Mustafa Aşurov və başqa gənc virtuoz ifaçıların istər klassik, istərsə də bu günün musiqi üslubları ilə dünya səhnələrində uğurlu çıxışları tar ifaçılıq sənətini layiqlə davam etdirməkdədir. Sözügedən ifaçılardan Şəhriyar İmanovun faəliyyəti xüsusi diqqətəlayiqdir. Çoxsaylı klassik musiqi janrlarında özünü sübut etmiş tar alətinin qarşısında günümüzdə populyarlaşan yeni musiqi janrları qarşısında sınanması kimi əhəmiyyətli hadisə dururdu. 2019-cu ildə işıq üzü görən "Jazz və Pop repertuarı" adlı tar və fortepiano üçün işləmələr böyük yol qət etmiş tar üçün köçürmə tarixinin ən yeni mərhələsinə imza atmışdır. Məcmuənin rəyçiləri Azərbaycan musiqi sənətinə öz əvəzolunmaz töhfələrini vermiş sənətşünaslıq üzrə fəlsəfə doktoru, professorlar Malik Quliyev və Məmmədağa Kərimov olmuşdur. Məcmuənin proqramına daxil olmuş nümunələr: Claude François, Jacques Revaux "My way", Joseph Kosma "Autumn leaves", Sigmund Romberg "Softly, as in a morning sunrise", Juan Tizol, Duke Ellington "Caravan", Carlos Almaran "Historia de un amor", Lionel Richie "Hello", Sting "Shape of my heart", Eagles "Hotel California", Chick Coreo "Spain". Etno-caz, pop, caz-funk kimi günümüzün musiqi üslublarının gənc virtuoz ifaçılar tərəfindən eləcə də xalq musiqi janrlarımız ilə sintez edilməsi müasir dövr ilə ayaqlaşmağımıza və dünya musiqisinə inteqrasiya prosesində iştirakına əhəmiyyətli rol oynamışdır.

Tar ifaçılıq repertuarının bu səviyyəyə qədər inkişaf yolunu dahi bəstəkar Üzeyir Hacıbəylinin sözləri ilə təsdiq edə bilərik: "Biz mədəniyyətin hər bir qismində iştirak etməliyik... Ümumi musiqi sənətini öyrənərsək, öz milli musiqimizin tərəqqisinə böyük-böyük xidmətlər etmiş olarıq. Belə olmasa, biz bir nöqtədə donub qalarıq. Not sistemi, Avropa musiqi alətləri və musiqi formaları bizim əsrlər boyu yaranmış zəngin, ahəngdar musiqimizi yeni mərhələyə qaldı-

rar, onun dünyada yayılmaq imkanlarını xeyli genişləndirər".

**Ədəbiyyat siyahısı:**


1. Əmirov F. C. "Musiqi səhifələri". Üzeyir məktəbi. // B. : "İşıq", 1978, s. 79-85
2. Hacıbəyli Ü. Ə. "Seçilmiş əsərlər" 2 cilddə // II cild. B. : "Şərq-Qərb", 2005, 456 s.
3. Kərimov M. Ə. , Novruzov A. M. "Azərbaycan xalq çalğı alətləri: not ifaçılığının tarixi" B. : "Ecoprint", 2017, 192s.
4. Mirzəliyev M. "Şərqin ürəyi olan tar" // "Hüriyyət" qəzeti, 2020, 9-10 yanvar. səh. 14
5. Mirzəyeva S. "Üzeyir bəy Hacıbəyovun publisistikasında musiqi məsələləri" // II nəşr B. : "Pedaqogika", 2004, 80 s.
6. Novruzov A. M. "Tar ifaçılıq sənətinin inkişafında bəstəkar əsərlərinin rolu" B. : "MBM", 2014, 199 s.
7. Quliyev R. Ə. "Azərbaycan milli musiqi aləti – tarın formalaşması və təkmilləşməsində Mirzə Sadıq Əsədoğlunun rolu". // "Musiqi dünyası" jurnalı, № 3 , 2012, s. 137-139


**Канан Садыгов**

## НАБЛЮДЕНИЕ ПО РАЗВИТИЮ ИСТОРИИ РЕПЕРТУАРА ИСПОЛНИТЕЛЬСТВО НА ТАР

**Резюме:** В статье представлена информация об этапах развития репертуара исполнительского искусства на таре. В статье отражены исторические факторы, способствующие обогащению репертуара. В частности, были исследованы первые образцы транскрипты для тар и фортепиано, занимающие значительное место в репертуаре исполнения на таре, и книжные издания с хронологическим последовательность.

**Ключевые слова**: тар, транскрипт, репертуар, этапа развития, исполнительство.

**Kanan Sadigov**

# A LOOK AT THE HISTORICAL PROGRESS OF PERFORMING REPERTOIRE ON THE TAR

**Summary:** The article provides information about the stages of development of the performing repertoire on tar. The historical factors of stimulating the enrichment of repertoire have been shown in article. Especially, the first examples of trancripts for tar and piano which occupy a significant place in the repertoire of tar performance and book publications with chronogical order have been also investigated.

**Key words:** tar, transcript, repertoire, stages of development, performance

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**